# Məzunlarıma



**Kəmalə ABİYEVA,**
Bakı şəhəri 31 nömrəli tam orta
məktəbin fizika müəllimi,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

Bu da sonuncu gün, ayrılıq anı
Neçə il qarşımda uşaq idiniz.
Bu da ömrünüzdə sehrli andı
Bir zəngin səsiylə böyüdünüz siz.

Hərəniz mənimçün bir dünyasınız
Sizinlə mən şagird olmuşam hər gün.
Şirin xatirəli bir dünyamsınız...
Sizinlə məzuna dönmüşəm bu gün.

İndi ürəyiniz min bir xəyallı
Kaş hər xəyalınız həqiqət olsun.
Sevin bu həyatı, sevin dünyanı,
Qoy sizi yaşadan məhəbbət olsun.

İllər ötüb keçdi, bir andı sanki,
Şagird deyilsiniz siz dünənki tək.
Gedin xoşbəxt olun, xoşbəxt olun ki,
Biz də bir az rahat yaşaya bilək.

# Vətən bayatıları

Əzizinəm, bu dağlar,
Bu meşələr, bu dağlar.
Yaman ağrıdır məni
Sinəmdəki bu dağlar...

Əzizim, ağlar qalıb,
Analar ağlar qalıb...
Vətənim yad əldədir
Ürəyim ağlar qalıb...

Əzizinəm, bu torpaq,
Canım-gözüm bu torpaq.
Bu boyda qəm yükünə
Necə dözür bu torpaq?..

Əzizinəm qan ağlar,
Bağ-bağatım qan ağlar.
Gəlinlərim, qızlarım
Gör nə vaxtdı qan ağlar...

Əzizinəm bu dərdi,
Bu möhnəti bu dərdi.
Dağılıb elim-obam
Necə çəkim bu dərdi?..

Əzizim bu laylamı?
Ağımı bu, laylamı?
Dilim alışıb yanır
Kim desin bu laylanı?

Eşidin harayımı
Qisas yerdə qalmasın!
Xocalı soyqırımı
Yadınızdan çıxmasın!

# Dünya mənə dar gəlir

Nəm dolubdu gözümə
Gülmək mənə ar gəlir.
Yer tapmıram özümə
Dünya mənə dar gəlir...

Bu həyatdı bilirəm
Kim ağlayır, kim gülür...
Mən ki, gülə bilmirəm
Dünya mənə dar gəlir...

Nə olsun yer kürəsi
Ölçüsünü dəyişmir.
Yurdum tikələnibsə
Dünya mənə dar gəlir...

Ana dedim vətənə
Anam yaralı gəzir.
Bir yer göstərin mənə
Dünya mənə dar gəlir..

Dünya mənə dar gəlir
Torpağım var yad əldə
Bu dərdi çəkən bilir
Nələr çəkirəm mən də...

Əzizim gözüm gülər,
Ürəyim, gözüm gülər.
Düşmənə dar eyləsəm
Bu gen dünyanı əgər,
Yer taparam özümə,
Mənim də üzüm gülər.